# İLHAM ƏLİYEV TƏRƏFİNDƏN KONSEPSİYALAŞDIRILAN YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK VƏ ENERJİ SAHƏLƏRİNİN MÜXTƏLİF SİYASİ PARAMETRLƏRİ

**Sənan Hüseynov**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı*
*huseynsenani123@gmail.com*

2005-ci ildən başlayaraq cənab Prezident İlham Əliyev Azərbaycanın bərpa olunan enerji mənbələrinin inkişafına üstünlük verilməsini əsas dövlət xətti kimi müəyyən etdi. Hökumət alternativ enerji mənbələrinin, o cümlədən külək, günəş və su elektrik enerjisinin qəbulunu hərtərəfli təşviq etmək üçün tədbirlər həyata keçirmişdir. Həmçinin 2009-cu ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılmış və beynəlxalq təşkilatlarla birgə ekoloji cəhətdən təmiz enerji layihələrinə başlanılmışdır. 2010-cu ildən 2020-ci ilə qədər olan onillik Azərbaycanın davamlılığa doğru keçidində diqqətəlayiq bir dövr olmuşdur. Bu müddət ərzində hökumət enerji səmərəliliyi və davamlılıq təcrübələrini təşviq etmək və

dəstəkləmək üçün əhəmiyyətli səylər göstərmişdir. Davamlı inkişafı dəstəkləməyə yönəlmiş qanunvericilik islahatları ilə yanaşı, yaşıl texnologiyalara sərmayə qoyuluşuna diqqət yetirilmişdir. Kənd təsərrüfatı, turizm və informasiya texnologiyaları kimi sahələrdə inkişafı təşviq etməklə iqtisadiyyatın genişlənməsi daha da gücləndirilmişdir. Həmçinin Azərbaycanın Ümumi Daxili Məhsulu ardıcıl yüksəliş trayektoriyası nümayiş etdirərək 2022-ci ildə 78,7 milyard dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 4,6 faiz artımı əks etdirir. 2022-ci ildə neft və qaz hasilatı ölkənin Ümumi Daxili Məhsulunun təxminən 47,8 faizini və ixrac gəlirinin 92,5 faizini təşkil edib. Beynəlxalq Ticarət Administrasiyası 2021-2022-ci illər arasında qeyri-neft sektoru Ümumi Daxili Məhsulda 9,1 faiz artım göstərmişdir. Lakin neft üzrə Ümumi Daxili Məhsulda 2,7 faiz azalma olduğu bildirilir. Hökumət ardıcıl olaraq Azərbaycanın bərpa olunan enerji sənayesini inkişaf etdirməyə və neftdən asılılığını azaltmağa çalışır. O, yaşıl enerjini təşviq etmək və elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payını 30 faiz artırmaq üçün 2030-cu ilə qədər 1500 MVt bərpa olunan enerji tutumunun quraşdırılması hədəfinə nail olmağı hədəfləyir.

Danılmaz həqiqətdir ki, üç il bundan əvvəl 2 fevral 2021-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-in 5-ci vacib məsələsi "Təmiz ətraf mühit və "yaşıl" artım ölkəsi" kimi qeyd olunmuşdur. Eləcə də bu fərman Azərbaycanın bərpa olunan enerji mənbələrinin genişləndirilməsinə sadiqliyini vurğulayır. Yaşıl iqtisadiyyatın ölkəmizdəki əsaslı inkiaşfının tənzimlənməsi yolunda atılan addımlardan bəziləri isə – Balaxanı Sənaye Parkının, Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu və s. kimi sənaye müsəssisələrinin fəaliyyətə başlaması olub. Bu müəssisələrin indiki iş prinsipi isə şərq ölkələrinə nisbətən daha çox iş yeri və ətraf mühitin qorunması yolunda, həmçinin yaşıl iqtisadiyyatın əsaslı keçid dövrünə qədəm qoymasında aparıcı rol oynayır. Məsələn, Özbəkistanda yaşıl iqtisadiyyat və onun tərkibində formalaşan ətraf mühitin mühafizəsinə ayrılan investisiya və dövlət proqramının ümumi fəaliyyət faizi 56,5%, Türkmənistanda 49,2%, Qazaxıstanda 72,4%, Qırğızıstanda 34,7% ölkəmizdə isə 85,1% təşkil edir. Qardaş ölkə Türkiyədə isə bu sahəyə ayrılan diqqət 2021-ci ildə baş verən meşə yanğınları nəticəsində baş vermiş və yaşıl iqtisadiyyata ayrılan dövlət dəstəyi 63,7% artmışdır. Bu faizlər təbii ki, büdcədəki maliyyə resursunun müqayisəsi və maddi-texniki bazanın strukturlaşdırılmasına istinad olunaraq hazırlanıb.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi tədbirin ölkəmizdə keçirilməsi qərara alınıb. COP29-a ev sahibliyi etməklə Azərbaycan qlobal ekoloji məqsədlərə sadiqliyini bir daha təsdiqləyir və Xəzər regionunda bərpa olunan enerjinin təşviqində qabaqcıl tərəf kimi özünü təsdiq edir.